# İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏR ÜÇÜN İXRACAT ÜZRƏ MƏLUMAT MASASI

# İSTİFADƏÇİLƏR ÜÇÜN TƏLİMAT

Http://exporthelp.europa.eu/

**YANVAR 2009**



# *HAZIRLAYANLARDAN*

***Komissar Katerin Əştondan (Catherine Ashton) salamlar***

*Hörmətli istifadəçi,*

*Sizi Avropa İttifaqının təmin etdiyi pulsuz onlayn xidməti olan inkişaf etməkdə olan ölkələr üçün nəzərdə tutulmuş İxracat üzrə Məlumat Masasının internet səhifəsində salamlamağıma şadam.*

*Avropa İttifaqı inkişaf etməkdə olan ölkələrdəki ticarət ortaqlarımızın Aİ bazarlarına maksimum dərəcədə sərbəst çıxışdan faydalanmasını təmin edən ticarət siyasətləri həyata keçirməkdə qətiyyətlidir. Mən Avropa İttifaqının inkişaf etməkdə olan ölkələrin Aİ-yə ixracat həcmini artırmaq və iqtisadiyyatlarını qlobal ticarət zəncirlərinə daha möhkəm bağlamaq yönündə həyata keçirdiyi preferensial ticarət üzrə tədbirlərin potensilına çox inanıram. Bu tədbirlər Afrika, Sakit okean və digər inkişaf etməkdə olan regionlardakı kiçik müəssisələrin öz məhsullarını ilk dəfə Avropada sata bildiyi zaman reallaşır.*

*Beynəlxalq ticarətin bu günkü qloballaşan dünyada hərtərəfli inkişaf etməsi üçün məlumat mənbələrinə çıxış son dərəcə vacibdir. Avropa İttifaqının İxracat üzrə Məlumat Masası inkişaf etməkdə olan ölkələrin ixracatçılarının mövcud və yeni bazarlara çıxış imkanlarından daha səmərəli istifadə edə bilmələri üçün aydın və asan əldə edilə bilən məlumata olan ehtiyaclarını qarşılayır. 2004-cü ilin fevralında fəaliyyətə başladığı zamandan bəri İxracat üzrə Məlumat Masası inkişaf etməkdə olan ölkələrdəki iqtisadi əməliyyatçılar üçün müvafiq və müasir məlumat təmin edən praktiki vasitə kimi özünün xidmətlər sırasını genişləndirmişdir.*

*Sizi Aİ bazarının təklif etdiyi biznes imkanlarından maksimum yararlanmağa dəvər edirəm. İxracat üzrə Məlumat Masası bu məqsədə nail olmaqda sizə kömək edən vasitələrdən biridir.*

# İSTİFADƏÇİLƏR ÜÇÜN TƏLİMAT

## <u>İÇİNDƏKİLƏR</u>

1 TƏLƏBLƏR VƏ VERGİLƏR

2 İDXAL TARİFLƏRİ

3 GÖMRÜK SƏNƏDLƏRİ

4 MƏHSULUN MƏNŞƏYİ HAQQINDA QAYDALAR

5 TİCARƏT ÜZRƏ STATİSTİKA

6 BAZAR

7 LİNKLƏR

8 ƏLAQƏ ÜNVANI

İMTİNA

## KİTABÇA

İxrac məsələləri üzrə Məlumat Masası kitabçasını İngilis, Fransız, Portuqal və İspan dillərində aşağıda verilmiş internet səhifəsindən əldə edə bilərsiniz:

**http://trade.ec.europa.eu/doclib/html/123139.htm**



# İSTİFADƏÇİLƏR ÜÇÜN TƏLİMAT

## İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏR ÜÇÜN İXRACAT ÜZRƏ MƏLUMAT MASASI NƏDİR?

İxracat məsələləri üzrə Məlumat Masası Avropa İttifaqı tərəfindən təmin edilən və inkişaf etməkdə olan ölkələrin Aİ bazarına çıxışını asanlaşdıran onlayn xidmətdir. Bu haqda ətraflı məlumat aşağıdakı veb ünvandan əldə edilə bilər: **http://exporthelp.europa.eu.**




İxracatçılar, idxalçılar, ticarət birlikləri və dövlətlər üçün nəzərdə tutulmuş bu pulsuz və istifadəsi asan onlayn xidmət aşağıdakıları təmin edir:

- Aİ və Üzv Dövlətlərin idxal tələbləri, o cümlədən məhsullara tətbiq edilən daxili vergilər haqqında məlumat;
- İnkişaf etməkdə olan ölkələr üçün Aİ preferensial idxal rejimləri haqqında məlumat;
- Aİ və ona Üzv Dövlətlər üçün ticarətlə bağlı məlumatlar;
- Ticarət fəaliyyətləri və ticarətin canlandırılmasında iştirak edən digər dövlət və beynəlxalq qurumların səhifələrinə linklər;
- İxracatçıların gerçək həyatda üzləşdikləri vəziyyətlərlə bağlı təfərrüatlı məlumat sorğuları təqdim etmək imkanı.

## İXRACAT ÜZRƏ MƏLUMAT MASASI İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏ İXRACATÇILARINA NECƏ KÖMƏK EDİR?

- Aİ və Üzv Dövlətlərin idxal tələbləri, o cümlədən daxili vergiləri haqqında məlumat əldə etmək üçün ***Tələblər və Vergilər*** bölməsinə baxın.

- Aİ-nin inkişaf etməkdə olan ölkələr üçün nəzərdə tutulmuş preferensial ticarət rejimlərindən maksimum dərəcədə yararlanmaq üçün ***İdxal Tarifləri, Gömrük Sənədləri və Məhsulun Mənşəyi haqqında Qaydalar*** bölmələrinə müraciət edin.

- Müəyyən Aİ bazarının hədəf kimi seçilməsinin uyğun olub olmadığını müəyyənləşdirmək üçün ***Ticarət üzrə Statistika*** bölməsinə baxın.

- Aİ daxilində ticarət ortaqları tapmaq və əlaqələr qurmaq üçün ***Linklər*** bölməsinə müraciət edin.

- İxracatçıların gerçək həyatda üzləşdiyi vəziyyətlərlə bağlı təfərrüatlı məlumat üçün ***Əlaqə*** bölməsinə baxın.

# 1. TƏLƏBLƏR VƏ VERGİLƏR

***Tələblər və Vergilər*** bölməsi istifadəçilərin Aİ və Üzv Dövlətlərin idxal tələbləri, o cümlədən məhsullara tətbiq edilən daxili vergilər haqqında ətraflı məlumat almasına imkan verir. Nəzərə almağınız xahiş olunur ki, bu bölmə sadəcə Ümumiləşdirilmiş Preferensiya Sisteminin (ÜPS) benefisiar ölkələrini, o cümlədən hazırda Avropa İttifaqı ilə ikitərəfli ticarət müqaviləsi imzalamış keçmiş ÜPS benefisiarlarını əhatə edir.

***Tələblər və Vergilər bölməsindən istifadə etmək üçün aşağıdakı addımlar atılmalıdır:***

***Addım 1 – Tələblər və Vergilər Daxil Etmə Formasına daxil olun***

http://exporthelp.europa.eu/thdapp/taxes/MSServlet?languageId=EN

| Tələblər və Vergilər | İdxal Tarifləri | Gömrük Sənədləri | Məhsulun mənşəyi haqqında qaydalar | Ticarət Statistikası | Bazar | Linklər |
|---|---|---|---|---|---|---|

**TƏLƏBLƏR VƏ VERGİLƏR**

**Bu bölmə Aİ və Üzv Dövlələrin idxal tələbləri və daxili vergiləri ilə bağlı məlumat təmin edir.**

**Nəzərə alın ki, bu bölmə sadəcə Ümumiləşdirilmiş Üstünlüklər Sisteminin (ÜÜS) benefisiar ölkələrini əhatə edir.**

Daxil Etmə Forması

Məhsulun kodunu daxil et            Bax və ya Axtar

(2,4,6,8 rəqəmli)

İstehsal edildiyi ölkəni seç

İxrac ediləcək ölkəni seç

Baxış

**Addım 2 – Məhsulun kodunu daxil edin**

**MƏHSULUN KODUNU BİLİRSİNİZSƏ**:

- Məhsulun kodunu **məhsul kodu** qutusuna daxil edin (nəzərə alın ki, siz 2, 4, 6 və ya 8 rəqəmli müvafiq kodu daxil edə bilərsiniz).

- **Addım 3-ə** keçin.

**MƏHSULUN KODUNU BİLMİRSİNİZSƏ:**

**VARİANT A**

- 'Axtarış' linkinə (məhsul kodu qutusunun sağ tərəfində) tıklayın. Məhsulunuzun növünü daxil edib 'Axtarış' düyməsinə tıklayın.
- Kataloqda məhsulla bağlı məlumat varsa, ***Axtarışın Nəticələri*** səhifəsində məhsulların siyahısı və müvafiq kodları əks olunacaq.
- ***Axtarışın Nəticələri*** səhifəsinin sol tərəfindəki birinci sütunda müvafiq məhsulun koduna tıklayın. Məhsullar haqqında daha ətraflı məlumat və onların müvafiq kodlarını əks etdirən ***Məhsullar Siyahısı*** səhifəsi açılacaq.
- Sol tərəfdəki birinci sütundan müvafiq məhsulun kodunu seçin.
- **Addım 3-ə** keçin.

*A VARİANTINDAN istifadə edərək məhsulun kodunu tapa bilmədikdə* **B VARİANTINI** *sınaya bilərsiniz:*

- Tələblər və Vergilər Daxil Etmə Forması bölməsindəki ***Baxış*** linkinə tıklayın, ***Fəsillər Siyahısı*** səhifəsi açılacaq.

| TƏLƏBLƏR VƏ VERGİLƏR | |
|---|---|
| Fəsillər siyahısı | Axtarış |
| Bölmə İ | Canlı heyvanlar, heyvan məhsulları |
| Fəsil 1 | Canlı heyvanlar |
| Fəsil 2 | Ət və qida üçün yararlı içalat |
| Fəsil 3 | Balıqlar, xərçəngkimilər, molyusklar və digər onurğasız su heyvanları |
| Fəsil 4 | Süd məhsulları; quş yumurtaları; təbii bal; başqa heç bir yerdə göstərilməyən heyvan mənşəli qida məhsulları |
| Fəsil 5 | Başqa heç bir yerdə göstərilməyən heyvan mənşəli qida məhsulları |
| Bölmə İİ | Tərəvəz məhsulları |
| Fəsil 6 | Canlı ağac və başqa bitkilər; soğanaqlar, köklər və s.; dərilmiş güllər və dekorativ yarpaqlar |
| Fəsil 7 | Yeməli tərəvəzlər, bəzi köklər və yumrular |
| Fəsil 8 | Yeməli meyvə və çərəzlər (qoz-fındıq); sitrus meyvələri və ya qarpız qabığı |
| Fəsil 9 | Qəhvə, çay, əlavə və ədviyyatlar |
| Fəsil 10 | Dənli bitkilər |
| Fəsil 11 | Üyütmə sənayesi məhsulları; maya; nişasta; inulin; buğda özü |
| Fəsil 12 | yağlı tumlar və meyvələr; müxtəlif taxıl bitkiləri, toxumlar, meyvələr; sənaye və dərman bitkiləri; saman və heyvan yemlər |

- 21 bölmədən birində məhsulunuz haqqında məlumat tapsanız, sol tərəfdəki **Bölmə** sütununda müvafiq fəsil başlığını tıklayın.
- Məhsullar haqqında ətraflı məlumat və müvafiq kodlarının əks olunduğu ***Məhsullar Siyahısı*** səhifəsi açılacaq.
- Sol tərəfdəki birinci sütunda müvafiq məhsulun kodunu seçin..
- **Addım 3**-ə keçin.

*A və B VARİANTLARINDAN istifadə edərək məhsulu tapa bilmədikdə* **C VARİANTINI** *sınaya bilərsiniz*:

- Aşağıdakı internet səhifəsində göstərilmiş təlimatlara riayət edərək "İcbari Tariflər haqqında Məlumat" (İTM) xidməti vasitəsilə məhsulunuzun kodunu tələb edin: http://ec.europa.eu/comm/taxation_customs/common/databases/ebti/index_en.htm

## Addım 3 – İstehsal edildiyi ölkəni seçin

Vebsaytın ***Tələblər və Vergilər*** bölməsindən istifadə etmək üçün aşağı-salma menyusundakı mövcud variantlardan məhsulun istehsal edildiyi ölkəni seçməlisiniz.

## Addım 4 – İxrac ediləcək ölkəni seçin

Siz, o cümlədən ikinci aşağı-salma menyu qutusundan məhsulun aparılacağı ölkəni (məhsulun ixrac ediləcəyi Avropa İttifaqına Üzv Dövlət) də seçməlisiniz. Müvafiq ***Tələblər Siyahısını*** əldə etmək üçün ***Baxış*** düyməsini tıklayın.

## Addım 5 – *Tələblər Siyahısı* səhifəsini oxuyun

Tələblər Siyahısında əks olunan məlumat dörd müxtəlif kateqoriyalara, onlar isə öz növbələrində bir sıra bölmələrə ayrılır.

**TƏLƏBLƏR VƏ VERGİLƏR**

**Tələblər Siyahısı**

Məhsulun kodu 08011900

İstehsal edildiyi ölkə Braziliya (br)

İxrac edildiyi ölkə Belçika (BE)

| Kodu | Məhsulun növü |
|---|---|
| 0801 | Kokos, Braziliya qozu, keşyu qozu, təzə və ya qurudulmuş, qabıqlı və ya qabıqsız |
| 0801 11 | Kokos |
| 0801 11 | Qurudulmuş bitkilər |
| 0801 11 | Digər |

| 08011900 üçün xüsusi tələblər | | Daxili vergilər | |
|---|---|---|---|
| Qeyri-heyvan mənşəli qida məhsullarına sanitar nəzarəti | Aİ/BE | ƏDV və digər rüsumlar | BE |
| Qida məhsullarının etiketlənməsi | Aİ/BE | | |
| Toxum və bitki çoxaltma materialları (gübrələr?) üzrə bazar tələbləri | Aİ/BE | | |
| Orqanik məhsullar | Aİ/BE | | |

**Bütün məhsullar üçün ümumi tələblər**

| | | | |
|---|---|---|---|
| Ticari hesab-faktura | Aİ | Gömrük dəyər deklarasiyası | Aİ |
| Daşınma sənədləri | Aİ | Daşınma sığortası | Aİ |
| Qablaşdırma siyahısı | Aİ | Vahid İnzibati Sənəd (VİS) | Aİ |

Ümumi nəzər

| | | | |
|---|---|---|---|
| İdxal sənədlərinə baxış | Aİ/BE | ƏDV | Aİ/BE |
| | | Aksiz vergisi | Aİ/BE |

**Qeyd:** ***Tələblər Siyahısı*** səhifəsinin aşağı hissəsində sizə orijinal daxil etmə forması səhifəsinə qayıtmadan məhsulu, istehsal və ya ixrac edildiyi ölkələri dəyişmək imkanı verən ***Tələblər və Vergilər Daxil etmə Formasının*** sadələşdirilmiş versiyası ilə tanış ola bilərsiniz.

- **Xüsusi Tələblər**

Xüsusi tələblər kateqoriyası daxilindəki alt-bölmələrdən birini seçdikdə məhsulun Aİ və ixrac ediləcək ölkə qutusunda qeyd edilmiş müəyyən Aİ Üzv Dövlətə daxil olması üçün qoyulmuş xüsusi tələblər haqqında ətraflı məlumat verən yeni pəncərə açılır.

**Misal**: Aİ Üzv Dövlətə ixrac edilməli olan məhsul qida məhsuludursa, həmin məhsul üçün ***Xüsusi tələblər*** kateqoriyasında ***Qida məhsullarının etiketlənməsi*** funksiyası çıxacaq. Bu tələbə tıkladıqda həmin məhsulun Aİ-yə daxil olması üçün müvafiq etiketləmə tələbləri və ixrac edilməli ölkə qismində seçilmiş müəyyən Aİ Üzv Dövləti haqqında əlavə məlumat təmin edən pəncərə açılacaq.

**İnkişaf etməkdə olan ölkələr üçün**

**İXRACAT ÜZRƏ MƏLUMAT MASASI**

Qeydlər

- Bu sənəd sadəcə İngilis dilindədir.
- Rəsmi Jurnalın yalnızca 1997-ci ildən sonrakı nəşrlərinə birbaşa çıxış mümkündür.

Qida məhsullarının etiketlənməsi

Avropa Birliyində satılan bütün qida məhsulları Aİ etiketləmə qaydalarına uyğun olmalı və müştərilər aldıqları qida məhsulları ilə bağlı bütün lazımı məlumatlarla təmin olunmalıdır.

Tətbiq edilə bilən etiketləmə şərtləri aşağıdakılardır:

- Qida məhsullarının etiketlənməsi üzrə ümumi qaydalar
- Müəyyən məhsul qrupları üçün xüsusi şərtlər
  - Genetikası Dəyişdirilmiş (GD) və Yeni Qida Növlərinin etiketlənməsi
  - Qida məhsullarının xüsusi qidalanma məqsədləri üçün etiketlənməsi
  - Qida məhsullarında istifadəsi nəzərdə tutulan maddələrin etiketlənməsi
  - Xüsusi qida məhsullarının etiketlənməsi

Bütün bu icbari qaydalarla yanaşı, istehsalçının könüllü şəkildə təmin edə biləcəyi düzgün və istehlakçını yalnış yönləndirməyən əlavə məlumatlar da əks etdirilə bilər, Misal üçün, etiketdə və ya reklam vəsaitində qidalanma ilə bağlı tələb olmadıqda qidalanma ilə bağlı nişalama icbari deyildir. Bu halda, qida tərkibi tələbi 90/496/EEC(OJL-276 06/10/1990) Şura Direktivinə müvafiq olaraq standarlaşdırılmış formata uyğun olmalıdır. Eynilə, (EEC) 2092/91 (OJL-208 24/07/1992) Şura Qanunu da orqanik etiketləmədən istifadəni tənzimləyən qaydalar irəli sürür.

Qida məhsullarının etiketlənməsi üzrə ümumi qaydalar

2000/13/EC (OJL-109 06/05/2000) Şura Direktivində nəzərdə tutulan ümumi qaydalara müvafiq olaraq qida məhsullarının etiketləri aşağıdakı mühüm məlumatları əks etdirməlidir:

- Məhsulun satış adı. Heç bir ticarət nişanı, brend adı məhsulun ümumi adını əvəz edə bilməz, lakin əlavə olaraq istifadə edilə bilər. Məhsulun fiziki vəziyyəti və ya keçmiş olduğu xüsusi prosedurlar (pudralanma, sublimasiyalı qurudulma, dərin dondurulma) kimi mühüm məlumatlar.

- **Daxili Vergilər**

Daxili Vergilər bölməsi müəyyən məhsul üçün seçilmiş Aİ Üzv Dövlətdə tətbiq edilə bilən daxili vergilər (Əlavə Dəyər Vergisi və digər rüsumlar) haqqında məlumat əks etdirir. **Aksiz** vergisi aşağıdakı formula uyğun hesablanır: **[pul vahidi] vahidin miqdarı / [vergi qoyulan vahid]** (burada "/" işarəsi "hər biri üçün" kimi oxunmalıdır).

**Misal**: Aksiz vergisi necə hesablanmalıdır (yəni, 754,77 Avr/h saf spirt)? Pul vahidi "Avro", vahidin miqdarı "754.77", vergi qoyulan vahid isə "hektolitr saf spirtdir". Ümumilikdə isə bu, aşağıdakı kimi başa düşülməlidir - "hər hektolitr saf spirt üçün 754.77 Avro". Beləliklə, 50% spirt tərkibli 4 hektolitr likör 2 hektolitr (= 4 x 50%) saf spirtə bərabərdir və bunun üçün 754.77 AVR x 2 = 1509.54 AVR vergi ödənilməlidir.

- **Bütün məhsullar üçün Ümumi Tələblər**

Bütün məhsullar üçün Ümumi Tələblər kateqoriyası altı alt-bölməyə ayrılmışdır: ***Ticari hesab-faktura, Gömrük Dəyər Deklarasiyası, Daşınma Sığortası, Gömrük İdxal Deklarasiyası (VİS), Daşınma sənədləri və Qablaşdırma siyahısı***.

Hər hansı alt-bölməni tıklamaqla seçilmiş kateqoriya haqqında ətraflı məlumat əks etdirən yeni pəncərə açılır.

- **<u>İdxal Prosedurlarına Ümumi Nəzər</u>**

Bu kateqoriya həm Aİ səviyyəsində, həm də seçilmiş müəyyən Üzv Dövlətlər üçün idxal prosedurları, həmçinin Aİ və Üzv Dövlətlərin ƏDV və aksiz rüsumu qaydaları haqqında ümumi məlumat verir.

**İnkişaf etməkdə olan ölkələr üçün**

**İXRACAT ÜZRƏ MƏLUMAT MASASI**

**Qeydlər**

- **Bu sənəd sadəcə İngilis dilindədir.**
- Rəsmi Jurnalın yalnızca 1997-ci ildən sonrakı nəşrlərinə birbaşa çıxış mümkündür.

**Avropa İttifaqı - Mühüm Prosedurların Xülasəsi**

**İçindəkilər:**


1. **Giriş**
2. **Gömrük İttifaqı**
3. **Vahid bazar**
4. **Tarif nomenklaturasında məhsulun təsnifatı**
5. **İdxal Ticarət Rejimi**
6. **Qida məhsulları və qidalanmanın təhlükəsizliyi**
7. **Heyvanların sağlamlığı**
8. **Bitkilərin sağlamlığı**
9. **Səhiyyə**
10. **Ətraf mühitin mühafizəsi**
11. **Kənd təsərrüfatı və balıq məhsulları üçün bazar standartları**
12. **Məhsulun təhlükəsizliyi**
13. **Texniki standartlaşdırma**
14. **Qablaşdırma**
15. **Etiketləmə**


### 1. Giriş

Bu sənəd inkişaf etməkdə olan ölkələrdən məhsul idxalı zamanı yerinə yetirilməli Aİ tələblərini ümumi şəkildə təsvir edir. Bu qaydalar səhiyyə, ətraf mühit, istehlakçıların tələblərini mühafizə etmək üçün qəbul edilmişdir.

# 2. İDXAL TARİFLƏRİ

*İdxal Traifləri* bölməsi istifadəçiləri müəyyən bir məhsula tətbiq edilən idxal tarifləri və digər ölçülər haqqında təfərrütlı məlumatla təmin edir.

***İdxal Tarifləri*** **bölməsindən istifadə etmək üçün aşağıdakı addımlar atılmalıdır:**

## Addım 1 – *Tələblər və Vergilər Daxil Etmə Formasına* gedin

http://exporthelp.europa.eu/thdapp/taric/TaricServlet?languageId=EN

| Tələblər və Vergilər | İdxal Tarifləri | Gömrük Sənədləri | Məhsulun mənşəyi haqqında qaydalar | Ticarət Statistikası | Bazar | Linklər |
|---|---|---|---|---|---|---|

**İdxal Tarifləri**

**Bu bölmə Aİ-nin preferensial ticarət rejimlərindən hərtərəfli faydalanmaq üçün lazımı məlumatlar təmin edir.**

Daxil Etmə Forması

Məhsulun kodunu daxil et Bax və ya Axtar

(2,4,6,8, 10 rəqəmli)

İstehsal edildiyi ölkəni seç

Təxmini tarix seç 21 yanvar 2009

Baxış

## Addım 2 – Məhsulun kodunu daxil edin

**MƏHSULUN KODUNU BİLİRSİNİZSƏ**:

- Məhsulun kodunu **məhsul kodu** qutusuna daxil edin (nəzərə alın ki, siz 2, 4, 6 və ya 8 rəqəmli müvafiq kodu daxil edə bilərsiniz).

- **Addım 3-ə** keçin.

**MƏHSULUN KODUNU BİLMİRSİNİZSƏ:**

**VARİANT A**

- 'Axtarış' linkinə (məhsul kodu qutusunun sağ tərəfində) tıklayın. Məhsulunuzun növünü daxil edib 'Axtarış' düyməsini basın.
- Kataloqda məhsulla bağlı məlumat varsa, ***Axtarışın Nəticələri*** səhifəsində məhsulların siyahısı və müvafiq kodları əks olunacaq.
- ***Axtarışın Nəticələri*** səhifəsinin sol tərəfindəki birinci sütunda müvafiq məhsulun koduna tıklayın. Məhsullar haqqında daha ətraflı məlumat və onların müvafiq kodlarını əks etdirən ***Məhsullar Siyahısı*** səhifəsi açılacaq.
- Sol tərəfdəki birinci sütundan müvafiq məhsulun kodunu seçin.
- Addım 3-ə keçin.

*A VARİANTINDAN istifadə edərək məhsulun kodunu tapa bilmədikdə* **B VARİANTINI** *sınayın*:

- İdxal Tarifləri Daxil Etmə Forması bölməsindəki ***Baxış*** linkinə tıklayın, ***Fəsillər Siyahısı*** səhifəsi açılacaq.

| **İDXAL TARİFLƏRİ** | |
|---|---|
| Fəsillər siyahısı | Axtarış |
| Bölmə 1 | Canlı heyvanlar, heyvan məhsulları |
| Fəsil 1 | Canlı heyvanlar |
| Fəsil 2 | Ət və qida üçün yararlı içalat |
| Fəsil 3 | Balıqlar, xərçəngkimilər, molyusklar və digər onurğasız su heyvanları |
| Fəsil 4 | Süd məhsulları; quş yumurtaları; təbii bal; başqa heç bir yerdə göstərilməyən heyvan mənşəli qida məhsulları |
| Fəsil 5 | Başqa heç bir yerdə göstərilməyən heyvan mənşəli qida məhsulları |
| Bölmə 2 | Tərəvəz məhsulları |
| Fəsil 6 | Canlı ağac və başqa bitkilər; soğanaqlar, köklər və s.; dərilmiş güllər və dekorativ yarpaqlar |
| | Yeməli tərəvəzlər, meyvəköklər və yumrular |
| Fəsil 7 | Yeməli meyvə və çərəzlər (qoz-fındıq); sitrus meyvələri vəya qarpız qabığı |
| Fəsil 8 | Qəhvə, çay, əlavə və ədviyyatlar |
| Fəsil 9 | Dənli bitkilər |
| Fəsil 10 | Üyütmə sənayesi məhsulları; maya; nişasta; inulin; buğda özü |
| Fəsil 11 | Yağlı tumlar və meyvələr; müxtəlif taxıl bitkiləri, toxumlar, meyvələr; sənaye və dərman bitkiləri; saman və heyvan yemlərİ |
| Fəsil 12 | |

- 21 bölmədən birində məhsulunuz haqqında məlumat tapsanız, sol tərəfdəki

**Bölmə** sütununda müvafiq fəsil başlığını tıklayın.

- Məhsullar haqqında ətraflı məlumat və müvafiq kodlarının əks olunduğu ***Məhsullar Siyahısı*** səhifəsi açılacaq.
- Sol tərəfdəki birinci sütunda müvafiq məhsulun kodunu seçin.
- **Addım 3**-ə keçin.

*A və B VARİANTLARINDAN istifadə edərək məhsulu tapa bilmədikdə* **C VARİANTINI** *sınaya bilərsiniz*:

- Aşağıdakı internet səhifəsində göstərilmiş təlimatlara riayət edərək "İcbari Tariflər haqqında Məlumat" (İTM) xidməti vasitəsilə məhsulunuzun kodunu tələb edin: http://ec.europa.eu/taxation_customs/common/databases/ebti/

**Addım 3 – İstehsal edildiyi ölkəni seçin**

Məhsulun istehsal edildiyi ölkəni seçməsəniz, hər hansı preferensial tariflər – **ÜÜS (GSP), İTM (EPA) və Azad Ticarət Müqaviləsi -** haqqında heç bir məlumat əldə edə bilməyəcək və sadəcə istehsal edildiyi ölkədən asılı olmayaraq bütün məhsullara tətbiq edilən tarifləri (**hamıya aid olan** tariflər haqqında məlumat) öyrənəcəksiniz.

**Addım 4 – Təxmini tarix seçin**

***Təxmini tarix*** avtomatik olaraq veb səhifənin istifadə edildiyi tarix götürülür, lakin siz özünüz də minimum 1 yanvar, 1998-ci il olmaqla erkən bir tarix seçə bilərsiniz.

**Addım 5 – "Baxış" düyməsini tıklayın**

**Addım 6 – *İdxal Tariflərinin Nəticələri* səhifəsini oxuyun**

**İdxal Tariflərinin Nəticələri** səhifəsi iki və ya üç cədvələ bölünür.

## İDXAL TARİFLƏRİ

**Nəticələr**

| | | | | | |
|---|---|---|---|---|---|
| Məhsulun kodu | 0301109000 | | | | |
| İstehsal edildiyi ölkə | Zambiya | | | | |
| Təxmini tarix | 19 yanvar, 2009 | | | | |
| **Kodu** | **Məhsulun növü** | | | | |
| 0301 | Canlı balıq | | | | |
| 0301 10 | Dekorativ balıq | | | | |
| 0301 10 10 | Şirin suda yaşayan balıq | | | | |
| 0301 10 90 | Duzlu suda yaşayan balıq | | | | |

| **Mənşəyi** | **Əlavə kodu** | **Tarif növü** | **Tarif** | **Haşiyə** | **Qanun/Qərar** |
|---|---|---|---|---|---|
| Hamıya aid olan | | Üçüncü ölkə rüsumu | 7,5% | | R9822610 |
| Hamıya aid olan | | İdxal nəzarət tarifi | | CD370 | R9703380 |
| İqtisadi Tərəfdaşlıq Müqavilələri | | Tarif preferensiyası | 0% | | R0715280 |
| ÜPS (R 08/732) – Əlavə 1 Sütun D (MM) istis. | | Tarif preferensiyası | 0% | | R0807322 |

Mənbə - DG Vergi və Gömrük İttifaqı Taric

## CƏDVƏL 1

- **1-ci sütunda** məhsulun ***Kodu*** qeyd edilir.
- **2-ci sütunda *Məhsulun Növü*** qeyd edilir.

## CƏDVƏL 2

Cədvəl 2 Cədvəl 1-in altında yerləşir və altı sütundan ibarətdir:

- **1-ci sütun *Mənşə*** sütunudur. **İdxal Tarifləri Daxil Etmə Formasında** qeyd edilmiş istehsal edilmə ölkəsindən asılı olaraq, 1-ci sütunda aşağıdakılar haqqında məlumat verilir:

  - **Hamıya aid olan tariflər**: Bu tarif istehsal edilldiyi ölkədən asılı olmayaraq bütün məhsullara tətbiq edilir.

  - **ÜÜS**: Bu tarif Aİ-nin Ümumiləşdirilmiş Üstünlüklər Sistemindən (Ümumi Vəziyyət, ÜÜS + yaxud Silahdan başqa Hər Şey) faydalanan məhsullara tətbiq edilir.

- **İTM**: Bu tarif İqtisadi Tərəfdaşlıq Müqaviləsinin (İTM) təsis edilməsi üzrə gəlinən razılıqla bağlı danışıqları yekunlaşdırmış ölkələrin məhsullarına tətbiq edilir.

- **ATM**: 1-ci sütunda ölkələrin adına uyğun şəkildə, məs. Çili, Misir, və s., müxtəlif azad ticarət müqavilələri verilmişdir.

**Qeyd**: Hər hansı bir ölkə birdən çox preferensial ticarət mühiti üçün münasibdirsə, əməliyyatçı daha səmərəli mühiti seçə bilər. Bununla belə, müxtəlif preferensial mühitlərin mənşəyi haqqında qaydalar bir-birinə çox bənzəsələr də, bir sıra mühüm fərqliliklər mövcud ola bilər. Bu səbəbdən də əməliyyatçılar hər zaman istifadə etmək istədikləri mühitlər üçün düzgün qaydalara istinad etməlidir.

- **2-ci sütun Əlavə Kodlar** sütunudur. Bu sütunda bir və daha çox kod olarsa, 3-cü və 4-cü sütunlardakı idxal tarifləri ancaq əlavə kodun kriteriyalarına cavab verən məhsula tətbiq ediləcək. Əlavə kodlar olarsa, birbaşa 2-ci cədvəlin altında üçüncü cədvəl yaranacaq və əlavə kodlar üçün lazımı kriteriyalar haqqında qısa izahat təmin edəcək.

- **3-cü sütun Tarif Növü** sütunudur.

- **4-cü sütun Tariflər sütunudur və** müvafiq **Rüsumları** əks etdirir.

**Qeyd**: Bu sütunda əlavə rüsumlar da göstərilə bilər.

Mümkün əlavə rüsum növləri aşağıdakılardır:

- **EA**: kənd təsərrüfatı komponenti;
- **ADSZ**: şəkər tərkibinə görə əlavə rüsum;
- **ADFM**: un tərkibinə görə əlavə rüsum;
- **EAR**: azaldılmış kənd təsərrüfatı komponenti;
- **ADSZR**: şəkər tərkibinə görə azaldılmış əlavə rüsum;
- **ADFMR**: un tərkibinə görə azaldılmış əlavə rüsum.

4-cü sütunda yuxarıda verilmiş qısaltmalardan hər hansı birinin olması ödənilməli əlavə

rüsumların olduğunu bildirir. Misal üçün, aşağıdakı rüsum:

**9 % + EA(1) MAX 18.7 +ADSZ(1)**

bu cür oxunmalıdır:

(**9 % idxal tarifi + kənd təsərrüfatı komponenti (1)**), **maksimum** (**18.7 % + ADSZ şəkər tərkibinə görə əlavə rüsum (1)**)

Rüsumun tam həcmini hesablamaq üçün kənd təsərrüfatı komponentinin (**EA**) və şəkər tərkibinə görə əlavə rüsumun (**ADSZ**) miqdarı müəyyən edilməlidir. Bu o deməkdir ki, rüsumun tam həcmini hesablamaq üçün məhsulun tərkibindəki süd yağının, süd proteinlərinin, Nişasta/Qlükoza/Saxaroza/İnvert şəkər/İzoqlükozanın faizini bilməlisiniz.

**Əlavə ödənilməli rüsumların müəyyən edilməsi**

**EA**, **ADSZ** kimi əlavə ödənilməli rüsumları müəyyən etmək üçün:

**Addım 1**: Aşağı verilmiş ünvandan TARİC ev səhifəsinə gedin:

**http://ec.europa.eu/taxation_customs/dds/tarhome_en.htm**

Tariflər haqqında məlumat axtarmaq üçün verilmiş iki variantdan birini seçin (ya məhsulun kodu, ya da növü vasitəsilə). Məhsulun kodunu və istehsal edildiyi ölkəni daxil etdikdən sonra 'Rüsum faizi' düyməsinə tıklayın. Nəticələr səhifəsindəki 'Mersinq kodu' düyməsinə tıkladıqda "Tərkiblər pəncərəsi" açılacaq.

**Addım 2**: Tərkiblər pəncərəsinə daxil edilmiş məhsulların tərkibini (süd yağının, süd proteinlərinin, nişastanın faizi) daxil edin. Tərkibləri müvafiq sahələrə qeyd etdikdən sonra tətbiq edilə bilən əlavə rüsumların görünməsi üçün bərabər (=) işarəsinə basın. .

**Addım 3**: Müxtəlif inqrediyentlərin (süd yağı...) bütün tanınmış tərkibləri üçün əlavə kod tətbiq edilir. Bu kod "7" ilə başlayır. Kod artıq məlum olduqda, tərkiblər pəncərəsinin "əlavə kodu daxil et" sahəsinə onun son üç rəqəmini daxil edə bilərsiniz. Misal üçün, əlavə kod 7605-dirsə, həmin sahəyə 605 daxil edin.

Əlavə kodu gömrük deklarasiyasında qeyd etmək məcburidir. Bu yolla siz məhsulun tərkibini

gömrük orqanına göstərir və müvafiq əlavə rüsumun hesablanmasını təmin edirsiniz.

Qısaltmalar **EA**, **ADSZ** və ya **ADFM**-dən ibatətdirsə, əlavə rüsumların tam olduğu (yəni azaldılmadığı) göstərilir.

Qısaltmalar EAR, ADSZR və ya ADFMR-dırsa preferensiyanın verildiyi gömrük deklarasiyası çərçivəsində əlavə rüsumların azaldıldığı bildirilir.

O da qeyd edilməlidir ki, sadəcə deklarasiyanın preferensial olması əlavə rüsumların azaldılması mənasına gəlmir. Tam əlavə rüsumlu preferensial deklarasiyalar da ola bilər. Bununla belə, azaldılmış əlavə rüsumlu qeyri-preferensial deklarasiyalar (çox əlverişli xalq rüsumunun verildiyi deklarasiyalar) da ola bilməz.

Azaldılmış əlavə rüsumlar olduqda tərkib pəncərəsində birdən çox rüsumun göstərilməsi mümkündür. Bu o deməkdir ki, bu məhsulun əlavə rüsumunun bir dəfədən çox azaldılması mümkündür. Misal üçün, preferensial norma və sadə preferensiyanın tətbiq edilə bildiyi deklarasiya üçün. Belə halda, qısaltmaların arxasında göstərilmiş mötərizədəki nömrələri – (1), (2) - yoxlayın. Tətbiq edilməli əlavə rüsumlar rüsum faizində mötərizədə verilmiş nömrələrə uyğun gələn nömrələrdə verilmiş olanlardır.

- **5-ci sütun *Haşiyə*** sütunudur. əlavə məlumat olduqda kod formasında əks olunur (məsələn, CD020). Bu koda tıkladıqda müvafiq təfərruatları əks etdirən pəncərə açılacaq.

- **6-cı sütun *Qanun/Qərar*** sütunudur. Bu sütundakı koda tıkladıqda tətbiq edilə bilən Aİ normaları ilə əlaqəli məlumatlar pəncərəsi açılacaq. Norma 1998-ci ildən sonra qəbul edilibsə, **RJ** işarəsi çıxacaq. Bu işarəyə tıklamaqla siz müvafiq normanın nəşr olunduğu Avropa Komissiyasının Rəsmi Jurnalına keçə biləcəksiniz.

**CƏDVƏL 3**

**Əlavə kodlar** olarsa, birbaşa ikinci cədvəlin altında üçüncü cədvəl görünəcək və ... üzrə zəruri kriteriyalar haqqında qısa məlumat verəcək.

# 3. GÖMRÜK SƏNƏDLƏRİ

Vebsəhifənin bu bölməsi inkişaf etməkdə olan ölkələr üçün mövcud müxtəlif ticarət rejimləri çərçivəsində preferensial rüsum əldə etmək üçün ixracatçının təmin etməli olduğu sənədlərdən bəhs edir.

**GÖMRÜK SƏNƏDLƏRİ**

Bu bölmə preferensial rüsum rejimi əldə etmək üçün təmin edilməli sənədlər haqqında məlumat verir.

**1. Ümumiləşdirilmiş Üstünlüklər Sistemi (ÜÜS)**

Aİ-nin Ümumiləşdirilmiş Üstünlüklər Sistemi (ÜÜS) ÜÜS benefisiar ölkələrdən idxal edilən müəyyən məhsullar üçün ya rüsumsuz çıxış, ya da azaldılmış tariflər verir.

Aİ-nin ÜÜS sistemi on illik dövrlərlə həyata keçirilir. Cari dövr 2006-2015-ci illəri əhatə edir. ÜSP Şura Qanunları ilə icra edilir. Ümumiləşdirilmiş güzəştli tarif sistemi tətbiq edən 22 iyul, 2008-ci il tarixli 732/2008 saylı Şura Qanunu (Aİ) 1 yanvar, 2009-cu ildən 31 dekabr 2011-ci ilədək qüvvədədir və aşağıdakı üç rejimdən ibrətdir:

- Qanuna 1-ci Əlavədə verilmiş bütün benefisiar ölklərə tətbiq edilə bilən ümumi rejim;
- Müəyyən kriteriyalara cavab verən (9 dekabr, 2008-ci il tarixli 2008/938/EC saylı Komissiya Qərarında nəşr edilmiş) on altı benefisiar ölkə üçün nəzərdə tutulmuş davamlı inkişaf və düzgün idarəetmə üzrə xüsusi stimullaşdırıcı rejim ("ÜSP+")
- əlli ən az inkişaf etmiş ölkəyə tətbiq edilə bilən və "Silahdandan Başqa Hər Şey" təşəbbüsü kimi tanınan xüsusi rejim.

ÜÜS-ün əsas xüsusiyyətləri ilə bağlı məlumatla **ÜÜS veb səhifəsində** tanış ola bilərsiniz.

ÜÜS-ə daxil olan məhsulların ixracatçı ölkədən çıxa bilməsi üçün cavab verməli olduğu tələblərlə bağlı məlumatla **Məhsulun mənşəyi haqqında qaydalar üzrə təlimat** səhifəsində tanış ola bilərsiniz.

- **ÜÜS –** Aİ ÜÜS sisteminin benefisiar ölklərində istehsal olunan məhsullar Mənşə Sertifikatı Forma A və ya spesifik hallarda ixracatçı tərəfindən verilən Faktura Deklarasiyası (tələb olunan sənədlərin nümunələrinin də daxil olduğu Ümumiləşdirilmiş Üstünlüklər Sisteminə aid mənşəni təsdiq edən sənədlərlə bu ünvanda tanış olun **http://exporthelp.europa.eu/hdlinks/gsp.cfm**) təqdim edildiyi təqdirdə nəzərdə tutulan preferensial rüsum faizlərindən yararlana biləcəklər.
- **AKS ölkələri** :
  - İqtisadi Tərəfdaşlıq Müqaviləsinin (İTM) əsasını qoyan razılaşma üzrə danışıqları başa çatdıran **AKS ölklərində** istehsal edilən məhsullar EUR.1 Daşınma Sertifikatı, yaxud xüsusi hallarda ixracatçı tərəfindən verilən faktura deklarasiyası (tələb olunan sənədlərin nümunələrinin də daxil olduğu İTM Bazara Çıxış Qanunu çərçivəsində tələb edilən sənədlərlə bu ünvanda tanış olun http://exporthelp.europa.eu/hdlinks/customs_req.cfm?languageId=EN) təqdim

edilməklə **Bazara Çıxış Qanununda** nəzərdə tutulmuş preferensial rüsum faizlərindən yararlana biləcək.

- o **CARIFORUM Ölkələri**: İqtisadi Tərəfdaşlıq Müqaviləsini (İTM) imzalamış CARİFORUM Ölkələrində istehsal edilən məhsullar EUR.1 Daşınma Sertifikatı, və ya ixracatçı tərəfindən verilən faktura deklarasiyası təqdim edilməklə müqavilədə nəzərdə tutulan preferensial rüsum faizlərindən yararlana biləcək. (Tələb olunan sənədlərin nümunələrinin də daxil olduğu İTM CARİFORUM çərçivəsində tələb olunan sənədlərlə bu ünvanda tanış olun http://exporthelp.europa.eu/hdlinks/customs_req_car.cfm?languageId=EN).

- **ATM-ləri**: Aİ-nin də regiondaxili (mərkəzi Avropa ölkələri, Aralıq dənizi sahili ölkələr) və xarici (Meksika, Çili) tərəfdaşları ilə çox sayda azad ticarət müqavilələri (ATM) var. ATM-lər investisiya qoyuluşu, əqli mülkiyyət, dövlət təchizatı, texniki standartlar və SFS (sanitariya və fitosanitariya) məsələləri kimi sahələrdə ticari şərtlərin yüngülləşdirilməsi və qaydaların təsis edilməsi üzrə şərtlər kimi qeyri-tarif rejimləri və tənzimləyici məsələlərə təsir göstərən şərtləri getdikcə genişləndirir.

# 4. MƏHSULUN MƏNŞƏYİ HAQQINDA QAYDALAR

Veb səhifənin bu bölməsi məhsulların Əlcəzair, Çili, Misir, İordniya, Livan, Mərakeş, Meksika, İordan çayının Qərb Sahili və Qəzza Zolağı, Tunis və ya Cənubi Afrika ilə nəzərdə tutlmuş ÜÜS, İTM CARİFORUM Dövlətləri, İTM Bazara Çıxış Qanunu və ATM-lər çərçivəsində preferensial gömrük rejimi əldə etmək məqsədilə təmin edilməli şərtlər haqqında məlumat verir.

Bütün digər ATM-lər üçün ixracatçıların BD Vergilər və Gömrük İttifaqı (TAXUD) "rejimlər siyahısına" baxmaları tövsiyə edilir:
http://ec.europa.eu/taxation_customs/customs/customs_duties/rules_origin/preferential/article_779_en.htm

**Məhsulun Mənşəyi haqqında Qaydalar** bölməsində müvafiq məlumat tapmaq üçün aşağıdakı addımları atın:

**<u>Addım 1 – *Məhsulun Mənşəyi haqqında Qaydalar Daxil Etmə Formasına* gedin</u>**
http://exporthelp.europa.eu/thdapp/rulesoo/inputform.jsp

| Tələblər və Vergilər | İdxal Tarifləri | Gömrük Sənədləri | Məhsulun mənşəyi haqqında qaydalar | Ticarət Statistikası | Bazar | Linklər |
|---|---|---|---|---|---|---|

## MƏHSULUN MƏNŞƏYİ HAQQINDA QAYDALAR

Bu bölmə preferensial mənşə qaydaları ilə bağlı məlumat təmin edir. Burada məhsulların preferensial gömrük rüjimlərindən yararlanması üçün təmin edilməli şərtlər irəli sürülür, əks halda rüsumlar tam şəkildə tətbiq edilir.

**Daxil Etmə Forması**

Rejim seç ÜÜS Qaydaları

İlkin Qeydlər Baxış

Məhsulun kodunu daxil et Bax və ya Axtar Baxış

(2, 4 rəqəmli)

**Mühüm Qeyd**

**CARİFORUM dövlətləri üçün**

CARİFORUM Dövlətləri ilə İqtisadi Tərəfdaşlıq Müqaviləsi (İTM) şərti olaraq 29 dekabr, 2008-ci ildən tətbiq edilməkdədir.

Bu **müqaviləni imzalayan ölkələr** aşağıdakılardır: Antiqua və Barbuda, Baham adaları, Barbados, Beliz, Dominikan, Dominikan Respublikası, Qrenada, Qayana, Yamayka, Sent-Lusiya, Sent-Vinsent və Qrenadin, Sent-Kristofer və Nevis, Surinam, Trinidad və Tobaqo.

CARİFORUM Dövlətlərində istehsal edilən məhsulların idxalına tətbiq edilə bilən və İTM-lə əlqəəli 1-ci Protokolda nəzərdə tutulan Məhsulun Mənşəyi haqqında Qaydalarla tanış olmaq üçün yuxarıdakı aşağı-salma menyudan "İTM CARİFORUM Dövlətləri" seçin.

**Bütün digər AKS ölkələri üçün**

**1 yanvar, 2008-ci** ildən etibarən **bütün digər AKS ölkələrinə** tətbiq edilən ticarət rejimi dəyişməz olaraq qalır.

**Addım 2 –*Rejim* seçin**

Müvafiq rejimi seçin : ÜÜS, İTM CARIFORUM, İTM Bazara Çıxış Qanunu, ATM-lər (Əlcəzair, Çili, Misir, İordaniya, Livan, Mərakeş, Meksika, Fələstin Muxtariyyəti (İşğal edilmiş), Tunis və ya Cənubi Afrika).

Bütün digər ATM-lər üçün ixracatçıların BD Vergilər və Gömrük İttifaqının (TAXUD) “rejimlər siyahısına” baxmaları tövsiyə edilir:

http://ec.europa.eu/taxation_customs/customs/customs_duties/rules_origin/preferential/article_779_en.htm

**Qeyd**: Ölkənin birdən çox rejim hüququ varsa, əməliyyatçı ona daha sərfəli olan rejimi seçə bilər. Bununla belə, müxtəlif preferensial rejimlərin mənşəyi haqqında qaydalar bir-birinə çox bənzəsələr də, bir sıra mühüm fərqliliklər mövcud ola bilər. Bu səbəbdən də əməliyyatçılar hər zaman istifadə etmək istədikləri rejimlər üçün düzgün qaydalara istinad etməlidir.

**Addım 3 – *Məhsulun kodunu* daxil edin**

Məhsulun kodunu **məhsul kodu** qutusuna daxil edin (nəzərə alın ki, siz 2, 4, 6 və ya 8 rəqəmli müvafiq kodu daxil edə bilərsiniz).

**Qeyd:** Məhsulun kodunu bilmirsinizsə, onu əvvəlki ***Tələblər və Vergilər***, yaxud ***İdxal Tarifləri*** bölmələrində verilmiş təlimatlara əməl etməklə əldə edə bilərsiniz.

Məhsulun mənşəyi haqqında müvafiq qaydaların verildiyi səhifə açılacaq.

## Addım 4 – *Məhsulun Mənşəyi haqqında Qaydalar* səhifəsini oxuyun

### MƏHSULUN MƏNŞƏYİ HAQQINDA QAYDALAR

**ÜÜS – Fəsil 12 – Təfərrüatlar**

| **HS başlığı** | **Məhsulun növü** | **İxrac edilən statusuna malik qeyri-ixracat malları üzərinda aparılan prosedurlar** |
| --- | --- | --- |
| Fəsil 12 | Zeytun tumları və meyvələri; müxtəlif dənli bitkilər, toxumlar və meyvələr; sənaye və dərman bitkiləri; saman və heyvan yemləri | Fəsil 12-də verilmiş bütün materialların istifadə olunduğu istehsalat məhsulu tam şəkildə əldə edilir. |

**Məhsulun mənşəyi haqqında qaydaları necə oxumaq lazımdır?**

1. Siyahıdakı birinci iki sütun əldə edilən məhsulu təsvir edir. Birinci sütunda Harmonlaşdırılmış Sistemdə istifadə olunan başlıq və ya fəslin nömrəsi, ikinci sütunda isə sistemdə həmin başlıq və ya fəsil altında göstərilən məhsulların növü verilir. Birinci iki sütuna hər bir daxil etmə üçün qaydalar 3 və ya 4-cü sütunlarda müəyyən edilir. Bəzi hallarda birinci sütuna daxil etmədən əvvəl "ex" gəlir ki, bu da 3 və 4-cü sütunlardakı qaydaların 2-ci sütunda göstərildiyi kimi həmin başlığın sadəcə bir hissəsinə aid olduğunu bildirir.
2. 1-ci sütunda bir neçə başlıq nömrəsi birgə verilibsə, yaxud fəsil nömrəsi və 2-ci sütunda məhsulların növü ümumi şəkildə verilibsə, 3 və 4-cü sutundakı qaydalar Harmonlaşdırılmış Sistem çərçivəsində fəsil başlıqlarında və ya 1-ci sütunda qruplaşmış başlıqlardan birində təsnif edilən bütün məhsullara tətbiq edilir.
3. Siyahıda başlıq daxilindəki müxtəlif məhsullara aid müxtəlif qaydalar olduqda, hər abzas başlıqların 3 və 4-cü sütunlardakı yanaşı qaydaların aid olduğu hissələrini təşkil edir.
4. Birinci iki sütuna daxil etmə üzrə qaydalar 3 və 4-cü sütunlarda müəyyən edildikdə, ixracatçı alternativ olaraq ya 3-cü, ya da 4-cü sütunda nəzərdə tutulan qaydanı tətbiq etməyi seçə bilər. 4-cü sütunda mənşə ilə bağlı hər hansı qayda irəli sürülməyibsə, 3-cü sütunda nəzərdə tutulan qayda tətbiq edilməlidir.

Mənbə EUR-Lex

**Mühüm qeyd:**

Bu, qeyri-ixracat məhsullarının ixrac edilən statusu alması üçün keçməli olduğu prosedurların siyahısıdır. Bunula belə, onlar bütün hallarda tətbiq edilmir: Tam əldə olunmuş (məs. yetişmiş) məhsullar həmin ölkədə istehsal edilibsə mənşəyin toplanması tətbiq edilə bilər. İttifaqa birbaşa daşınma da daxil olmaqla digər şərtlər də tətbiq edilir. Məhsulun mənşəyi haqqında ətraflı məlumat üçün buraya tıklayın.

ÜÜS mənşə haqqında qaydalarının ətraflı izahı aşağıdakı ünvandan əldə edə biləcəyiniz Komissiyanın istifadəçilər üçün təlimatında verilmişdir:

**http://ec.europa.eu/comm/taxation_customs/common/publications/info_docs/customs.**

Siyahıdakı ilk iki sütun əldə edilən məhsulu təsvir edir. Birinci sütunda Harmonlaşdırılmış Sistemdə istifadə olunan başlıq və ya fəslin nömrəsi, ikinci sütunda isə sistemdə həmin başlıq və ya fəsil altında göstərilən məhsulların növü verilir. Birinci iki sütuna hər bir daxil etmə üçün qaydalar 3 və ya 4-cü sütunlarda müəyyən edilir. Bəzi hallarda birinci sütuna daxil etmədən əvvəl "ex" gəlir ki, bu da 3 və 4-cü sütunlardakı qaydaların 2-ci sütunda göstərildiyi kimi həmin başlığın sadəcə bir hissəsinə aid olduğunu bildirir.

1-ci sütunda bir neçə başlıq nömrəsi birgə verilibsə, yaxud fəsil nömrəsi və 2-ci sütunda

məhsulların növü ümumi şəkildə verilibsə, 3 və 4-cü sutundakı qaydalar Harmonlaşdırılmış Sistem çərçivəsində fəsil başlıqlarında və ya 1-ci sütunda qruplaşmış başlıqlardan birində təsnif edilən bütün məhsullara tətbiq edilir.

Siyahıda başlıq daxilindəki müxtəlif məhsullara aid müxtəlif qaydalar olduqda, hər abzas başlıqların 3 və 4-cü sütunlardakı yanaşı qaydaların aid olduğu hissələrini təşkil edir.

Birinci iki sütuna daxil etmə üzrə qaydalar 3 və 4-cü sütunlarda müəyyən edildikdə, ixracatçı alternativ olaraq ya 3-cü, ya da 4-cü sütunda nəzərdə tutulan qaydanı tətbiq etməyi seçə bilər. 4-cü sütunda mənşə ilə bağlı hər hansı qayda irəli sürülməyibsə, 3-cü sütunda nəzərdə tutulan qayda tətbiq edilməlidir.

**Qeyd**: Bu, qeyri-ixracat məhsullarının ixrac edilən statusu alması üçün keçməli olduğu prosedurların siyahısıdır. Bunula belə, onlar bütün hallarda tətbiq edilmir: Tam əldə olunmuş (məs. yetişmiş) məhsullar həmin ölkədə istehsal edilibsə mənşəyin toplanması tətbiq edilə bilər. İttifaqa birbaşa daşınma da daxil olmaqla digər şərtlər də tətbiq edilir.

Daha təfərrüatlı məlumat üçün aşağıdakı internet səhifələrinə müraciət edin:

http://europa.eu.int/comm/taxation_customs/customs/customs_duties/rules_origin

**yaxud**

http://exporthelp.europa.eu/thdapp/rulesoo/show.jsp?cmd=note&regime=gsp&chapterNumber

# 5. TİCARƏT STATİSTİKASI

Bu bölmə birgə və ayrı-ayrılıqda 27 Aİ Üzv Dövlətin idxal və ixracat məsələləri, həmçinin Aİ-daxili ticarət üzrə təfərrüatlı ticarət statistikası təmin edir və potensial bazarların tədqiqi üçün çox mühüm alət rolunu oynayır.

***Statistik məlumat əldə etmək üçün aşağıdakı addımları atın:***

**Addım 1 – *Ticarət Statistikası Daxil Etmə Formasına* gedin**

http://exporthelp.europa.eu/thdapp/comext/ComextServlet?

| Tələblər və Vergilər | İdxal Tarifləri | Gömrük Sənədləri | Məhsulun mənşəyi haqqında qaydalar | Ticarət Statistikası | Bazar | Linklər |
|---|---|---|---|---|---|---|

**TİCARƏT STATİSTİKASI**

Bu bölmə Aİ və ona Üzv Dövlətlər üçün ticari məlumatlar (idxal və ixracat əməliyyatları ilə bağlı) təmin edir.

Daxil Etmə Forması

| | |
|---|---|
| Məhsulun kodunu daxil et (2, 4, 6, 8 rəqəmli) | Bax və ya Axtar |
| Məlumatı verən ölkəni seç | EUR27 |
| Tərəfdaş ölkəni seç | Bütün tərəfdaşlar |
| İl(lər)i seç | 2006 |
| Göstəriciləri seç | İdxal dəyəri<br>İxrac dəyəri |
| | Baxış |

**Addım 2 – *Məhsulun kodunu* daxil edin**

**MƏHSULUN KODUNU BİLİRSİNİZSƏ**:

- Məhsulun kodunu **məhsul kodu** qutusuna daxil edin (nəzərə alın ki, siz 2, 4, 6 və ya 8 rəqəmli müvafiq kodu daxil edə bilərsiniz).

- **Yekun rəqəmləri görmək üçün**: seçilmiş ölkədən bütün məhsullar üçün yekun ixrac/idxal rəqəmlərini görmək üçün daxil etmə formasının məhsul kodu qutusuna 00 yazın.

- **Addım 3-ə** keçin.

**MƏHSULUN KODUNU BİLMİRSİNİZSƏ:**

**VARİANT A**

- 'Axtarış' linkinə (məhsul kodu qutusunun sağ tərəfində) tıklayın. Məhsulunuzun növünü daxil edib 'Axtarış' düyməsini basın.
- Kataloqda məhsulla bağlı məlumat varsa, ***Axtarışın Nəticələri*** səhifəsində məhsulların siyahısı və müvafiq kodları əks olunacaq.
- ***Axtarışın Nəticələri*** səhifəsinin sol tərəfindəki birinci sütunda müvafiq məhsulun koduna tıklayın. Məhsullar haqqında daha ətraflı məlumat və onların müvafiq kodlarını əks etdirən ***Məhsullar Siyahısı*** səhifəsi açılacaq.
- Sol tərəfdəki birinci sütundan müvafiq məhsulun kodunu seçin.
- **Addım 3**-ə keçin.

*A VARİANTINDAN istifadə edərək məhsulun kodunu tapa bilmədikdə* **B VARİANTINI** *sınayın*:

- Ticarət Statistikası Daxil Etmə Formasındakı ***Baxış*** linkinə tıklayın, ***Fəsillər Siyahısı*** səhifəsi açılacaq.

| **TİCARƏT STATİSTİKASI** | |
|---|---|
| Fəsillər siyahısı | Axtarış |
| Bölmə 1 | Canlı heyvanlar, heyvan məhsulları |
| Fəsil 1 | Canlı heyvanlar |
| Fəsil 2 | Ət və qidaya yararlı ət tullantıları |
| Fəsil 3 | Balıqlar, xərçəngkimilər, molyusklar və digər onurğasız su heyvanları |
| Fəsil 4 | Süd məhsulları; quş yumurtaları; təbii bal; başqa heç bir yerdə göstərilməyən heyvan mənşəli qida məhsulları |
| Fəsil 5 | Başqa heç bir yerdə göstərilməyən heyvan mənşəli qida məhsulları |
| Bölmə 2 | Tərəvəz məhsulları |
| Fəsil 6 | Canlı ağac və başqa bitkilər; soğanaqlar, köklər və s.; dərilmiş güllər və dekorativ yarpaqlar |
| Fəsil 7 | Yeməli tərəvəzlər, meyvəköklər və yumrular |
| Fəsil 8 | Yeməli meyvə və çərəzlər; sitrus meyvələri və qarpız qabığı |
| Fəsil 9 | Qəhvə, çay, əlavə və ədviyyatlar |
| Fəsil 10 | Dənli bitkilər |
| Fəsil 11 | Üyütmə sənayesi məhsulları; maya; nişasta; inulin; buğda özü |
| Fəsil 12 | Zeytun tumları və meyvələri; müxtəlif dənli bitkilər, toxumlar, meyvələr; sənaye və dərman bitkiləri; saman və heyvan yemlərİ |

- 21 bölmədən birində məhsulunuz haqqında məlumat tapsanız, sol tərəfdəki **Bölmə** sütununda müvafiq fəsil başlığına tıklayın.

- Məhsullar haqqında ətraflı məlumat və müvafiq kodlarının əks olunduğu ***Məhsullar Siyahısı*** səhifəsi açılacaq.

- Sol tərəfdəki birinci sütunda müvafiq məhsulun kodunu seçin.

- **Addım 3**-ə keçin.

*A və B VARİANTLARINDAN istifadə edərək məhsulu tapa bilmədikdə* **C VARİANTINI** *sınaya bilərsiniz*:

Aşağıdakı internet səhifəsində göstərilmiş təlimatlara riayət edərək "İcbari Tariflər haqqında Məlumat" (İTM) xidməti vasitəsilə məhsulunuzun kodunu tələb edin:

http://ec.europa.eu/comm/taxation_customs/common/databases/ebti

**Addım 3 – *Məlumatı verən ölkəni* seçin**

***Məlumatı verən ölkəni seç*** qutusunda avtomatik olaraq **EUR27** görünür.

**Variant 1 - *EUR27***: **EUR27** rejimi bütün Aİ (və ayrı-ayrılıqda bütün iyirmi yeddi Aİ ÜZV Dövlətlər) üzrə ticarət statistikası təmin edir.

**Variant 2 – *EUR25:* EUR25** seçməklə siz iyirmi beş Aİ Üzv Dövləti üzrə ticarət statistikası ilə tanış olursunuz (2007-ci ildə Aİ Üzv Dövlətlərin sayı 25-dən 27-ə qalxmışdır).

**Variant 3** – Müəyyən bir məlumat verən ölkə seçməklə siz seçilmiş Aİ Üzv Dövlətin ticarət statistikası ilə tanış olursunuz.

**Addım 4 – *Tərəfdaş Ölkə Seçin***: ***Tərəfdaş ölkə seç*** qutusunda avtomatik olaraq ***Bütün tərəfdaşlar*** görünür.

**Variant 1 – *Bütün tərəfdaşlar***: Bu variantı seçməklə siz bütün ölkələr üzrə ticarət statistikası ilə tanış olursunuz.

**Variant 2 –** *Müəyyən tərəfdaş ölkə seçməklə siz seçilmiş tərəfdaş ölkənin ticarət statistikası ilə tanış olursunuz.*

**Addım 5 – İl(lər)i seçin**

***İl(lər)i seç*** qutusunda siz aşağıdakılardan birini seçə bilərsiniz:

**Variant 1** – Hər hansı il (minimum 2002-ci il) üzrə ticarət statistikasına baxmaq üçün müvafiq ili seçin.

**Variant 2**- Eyni vaxtda birdən çox il üzrə ticarət statistikasına baxmaq üçün Ctrl və ya Shift düymələrini basaraq müvafiq illəri seçin.

**Addım 6 – Göstərici(lər)i seçin**:

***Göstərici(lər)i seç*** qutusu aşağıdakı altı kateqoriyadan ibarətdir:

- **İdxalın Dəyəri:** Bu kateqoriyanı seçməklə seçilmiş tərəfdaş ölkədən (bütün tərəfdaşlar və ya müəyyən tərəfdaş ölkə) seçilmiş məlumat verən ölkəyə (EUR27, EUR25 və ya müəyyən Aİ Üzv Dövlət) müəyyən məhsulun minlərlə avroluq idxal dəyəri ilə tanış olacaqsınız.
- **İdxalın Həcmi: Bu kateqoriyanı seçməklə** seçilmiş tərəfdaş ölkədən (bütün tərəfdaşlar və ya müəyyən tərəfdaş ölkə) seçilmiş məlumat verən ölkəyə (EUR27, EUR25 və ya müəyyən Aİ Üzv Dövlət) müəyyən məhsulun minlərlə kiloluq idxal həcmi ilə tanış olacaqsınız.
- **Əlavə İdxal Həcmi: Bu kateqoriyanı seçməklə** seçilmiş tərəfdaş ölkədən (bütün tərəfdaşlar və ya müəyyən tərəfdaş ölkə) seçilmiş məlumat verən ölkəyə (EUR27, EUR25 və ya müəyyən Aİ Üzv Dövlət) müəyyən məhsulun vahidi üçün, varsa, əlavə idxal həcmi ilə tanış olacaqsınız. Əlavə həcm, miqdarı bildirən və adətən kiloqramla ifadə edilən kütləni deyil, litr, hissələrin sayı, kvadrat metr və ya digər ölçü vahidlərini əks etdirir.
- **İxracatın Dəyəri:** Bu kateqoriyanı seçməklə seçilmiş məlumat verən ölkədən (EUR27, EUR25 və ya müəyyən Aİ Üzv Dövlət) seçilmiş tərəfdaş ölkəyə (bütün tərəfdaşlar və ya müəyyən tərəfdaş ölkə) müəyyən məhsulun minlərlə avroluq ixracat dəyəri ilə tanış olacaqsınız.

- **İxracatın Həcmi:** Bu kateqoriyanı seçməklə seçilmiş məlumat verən ölkədən (EUR27, EUR25 və ya müəyyən Aİ Üzv Dövlət) seçilmiş tərəfdaş ölkəyə (bütün tərəfdaşlar və ya müəyyən tərəfdaş ölkə) müəyyən məhsulun minlərlə kiloluq ixracat həcmi ilə tanış olacaqsınız.
- **Əlavə İxracat Həcmi: Bu kateqoriyanı seçməklə** seçilmiş tərəfdaş ölkədən (bütün tərəfdaşlar və ya müəyyən tərəfdaş ölkə) seçilmiş məlumat verən ölkəyə (EUR27, EUR25 və ya müəyyən Aİ Üzv Dövlət) müəyyən məhsulun vahidi üçün, varsa, əlavə ixracat həcmi ilə tanış olacaqsınız. Əlavə həcm, miqdarı bildirən və adətən kiloqramla ifadə edilən kütləni deyil, litr, hissələrin sayı, kvadrat metr və ya digər ölçü vahidlərini əks etdirir.

**Addım 7 – *Ticarət Statistikası üzrə Nəticələr* səhifəsini oxuyun**

Ticarət statistikası səhifəsinin quruluşu ***Ticarət Statistikası Daxil Etmə Formasına*** daxil edilən seçimlərdən asılı olaraq dəyişir.

**Qeyd**: Səhifəsinin aşağı hissəsində sizə orijinal daxil etmə forması səhifəsinə qayıtmadan göstəriciləri, məlumat verən ölkəni, tərəfdaş ölkəni və məhsulu dəyişmək imkanı verən ***Ticarət Statistikası Daxil etmə Formasının*** sadələşdirilmiş versiyası ilə tanış ola bilərsiniz**.**

İdxal/İxracat üçün bir kilonun qiymətinin hesablanması: İdxal və ya ixracat üzrə bir kilonun qiymətini hesablamaq üçün idxal və ya ixracat dəyəri sütunundakı rəqəmi idxal və ya ixracat həcmi sütunundakı müvafiq rəqəmə bölmək lazımdır. Misal üçün, X ölkəsindən X məhsulu üçün **idxal dəyəri** 3,300 Avro, **idxal həcmi** isə 0,3 tondursa (300 kq), 3, 300-ü 300-ə bölərək qiymət – 11 avro əldə edilir.

**Ticarət statistikası məlumatlarını yükləmək üçün:**

**Ticarət Statistikası üzrə Nəticələr** səhifəsindəki məlumatları cədvəl formasına salmaqla hesablamalar, digər təhlillər apara biləcəksiniz. Məlumatı köçürmənin iki mümkün yolu var:

**VARİANT A**

Nəticələr səhifəsinin yuxarı hissəsindəki 'TAB' və ya 'XLS' linklərinə tıklayaraq nəticələri müvafi olaraq .tab və ya .xls (Microsoft Excel) formatına çevirin.

**VARİANT B**

**Addım 1**: Excel Vərəqinə çevirmək istədiyiniz ticarət statistika cədvəlinə tıklayın.

**Addım 2**: Menyunun görünməsi üçün mausun sağ düyməsini basın.

**Addım 3**: “Microsoft Excelə çevir” menyu variantını seçin.

Nəticədə excel vərəqi açılacaq və İxracat Məsələləri üzrə Məlumat Masasının ticarət statistika cədvəlindəki statistik məlumatlar Excel Vərəqinə köçürüləcək.

# 6. BAZAR

Əvvəllər ticarətçilər arasında əlaqələri/ünsiyyəti asanlaşdıran forum qismində fəaliyyət göstərən Bazar bölməsi son iki il ərzində daxil olanların davamlı şəkildə azalması nəticəsində fəaliyyətini dayandırmışdır.

Bu xidmətin əvəzində 1 may, 2009-cu ildən etibarən tam şəkildə fəaliyyətə başlayacaq yeni yarım-bölmə biznes üçün biznes platformaları təmin edən digər vebsəhifələrə keçidlər təklif edən LİNKLƏR bölməsinə daxil edilmişdir.

# 7. LINKLƏR

Ayrı-ayrı Üzv Dövlətlərin gömrük orqanları, inkişaf etməkdə olan ölkələrdən idxal fəaliyyətləri həyata keçirən təşkilatlar, Aİ və Üzv Dövlət səviyyəsində Aİ idxalçılar assosiasiyaları ilə birbaşa əlaqələr qurun. ***Linklər*** bölməsinə hər hansı dəyişiklik və əlavələrlə bağlı təkliflərinizi eşitməyə hər zaman şad olarıq (**http://exporthelp.europa.eu/hdlinks/links.cfm?).**

## LİNKLƏR

Bu bölmə ticarətlə məşğul olan Aİ, Aİ Üzv Dövlətlərin müvafiq qurumları və beynəlxalq təşkilarlardan bəhs edir.

Tıklamaqla link kateqoriyası seçin.

**GÖMRÜK ORQANLARININ VEB SƏHİFƏLƏRİNƏ LİNKLƏR**

Aİ – Qurumlar

Aİ Üzlüyünə Namizəd Ölkələr

Beynəlxalq Təşkilatlar

EU27 Üzv Dövlətlər

**TİCARƏT VƏ DİGƏR PEŞƏKAR BİRLİKLƏRƏ LINKLƏR**

EU27 Üzv Dövlətlər

Aİ səviyyəli

Beynəlxalq səviyyəli

**TİCARƏT VƏ İNKİŞAF SİYASƏTİ İLƏ MƏŞĞUL OLAN TƏŞKİLATLARA LİNKLƏR**

Digərləri

# 8. ƏLAQƏ ÜNVANI

**Əlaqə ünvanı** bölməsi inkişaf etməkdə olan ölkə ixracatçılarına gerçək vəziyyətlərlə bağlı ətraflı suallar vermək imkanı təmin edir (**http://exporthelp.europa.eu/hdinforequest**) . Suallar İxracat üzrə Məlumat Masasının dörd dilindən birində (İngilis, Fransız, Portuqal və ya İspan) göndərilə bilər.

İxracat üzrə Məlumat Masası komandası Əlaqə bölməsini Avropa İttifaqı ilə əlaqədar vətəndaşların bütün sullarını cabvablandırmaq məqsədilə təsis edilmiş Avropa Komissiyasının xüsusi xidməti olan Avropa Birbaşa Əlaqə Mərkəzinə birləşdirmişdir. İMM komandası ilə Avropa Birbaşa birgə çalışırlar. Sualların 2/3-si 5 gün ərzində cavablandırılır.

## ƏLAQƏ FORMASI

Bu bölmədə ixracatçıların üzləşdikləri real vəziyyətlərlə bağlı ətraflı məlumat əldə etmə tələbi təqdim etmək mümkündür.

Sizin sorğunuz İxracat üzrə Məlumat Masası adından Avropa Birbaşa Əlaqə Mərkəzi tərəfindən baxılacaq.

**Əlaqə Forması**

**Zəhmət olmasa aşağıdakı formanı doldurmaqla sorğunuzu təqdim edin.**

Bütün şəxsi məlumatlarınız məxfi saxlanılacaq.

(*)=məcburi məlumat

Titul* Xanım və ya Cənab

Adı*

Soyadı*

E-poçt ünvanı*

Yaşadığı ölkə* Seç

Milliyəti Seç

Təşkilatın növü* Seç

Hansı dildə cavab almaq istərdiniz?* İngilis

**Zəhmət olmasa sualınızı aydın şəkildə aşağıdakı qutuya daxil edin**:

Mövzu* Seç

Sual*

2000 simvol qalıb

**Təhlükəsizlik kodu**

Şəbəkənin təhlükəsizliyini təmin

Etməyimiz üçün şəkildə gördüyünüz simvolları

Aşağıdakı qutuya daxil edin*

Təqdim et

# İMTİNA

Komissiya bu sənəddə verilənlərlə bağlı hər hansı məsuliyyət və öhdəliyi qəbul etmir.

Bu verilənlərə daxildir:

- Müəyyən fərd və ya şəxslə əlaqədar spesifik vəziyyətlərə aid olmayan ümumi xarakterli məlumatlar;
- Kifayət qədər təfərrüatlı, tam, düzgün və ya yeni olamayan məlumatlar;
- Qeyri-peşəkar və ya hüquqi məsləhət (xüsusi tövsiyəyə ehtiyacınız olduqda mütləq mütəxəssisə müraciət edin).

Nəzərə alın ki, onlayn sənədin eynilə rəsmi şəkildə qəbul edilmiş mətni əks etdirəcəyinə zəmanət verilmir. Yalnızca Avropa İttifaqının Rəsmi Jurlanılının kağız nəşrlərində dərc edilmiş qanunları həqiqi hesab edilir.

Bu imtina müvafiq dövlət qanununun irəli sürdüyü tələblərin pozulması üzrə Komissiyanın öhdəliklərini məhdudlaşdırmaq və həmin qanunda nəzərdə tutulmayan məsələlər üzrə öhdəliyini istisna etmək üçün nəzərdə tutulmayıb.